*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 254-260*
https://doi.org/10.62837/2024.6.254

**AYSEL AĞAMALIYEVA**
**ayselagamalizade2015@gmail.com**
**Xırdalan 1 saylı tam orta məktəb**
**Qalubiyyə, Abşeron, AZ0100**

# DİLDƏ YAŞ KATEQORİYASININ İFADƏSİ

**Açar sözlər: bioloji və sosial yaş, linqvistik dəyişiklik, sləng, yaş xüsusiyyətləri.**
**Keywords: biological and social age, linguistic change, slang, age characteristics.**
**Ключевые слова: биологический и социальный возраст, лингвистическое изменение, сленг, возрастные особенности.**

İnsanları birləşdirən ümumi keyfiyyətlərdən biri də yaş kateqoriyasıdır. Bu kateqoriya özündə iki əsas elementi ehtiva edir – uşaq yaşı və böyük yaşı [1]. Bu keyfiyyət onların dildən necə istifadə etməsinə də təsir göstərir. Ona görə uşaq, yeniyetmə və böyüklərin nitq prosesində istifadə etdikləri dil materialları fərqli olur. Başqa sözlə, yaş xüsusiyyətlərindən asılı olaraq insanların dil davranışı dəyişir.

İnsanların yaşlanma prosesi və dildən istifadə arasında əlaqə iki əsas mövqedən – 1) fərdin öz həyatı boyu istifadə etdiyi dilin dəyişməsi və 2) dil birliyi çərçivəsində müxtəlif fərdlər qrupunun istifadə etdiyi dil mövqelərindən təhlil olunur [8]. Dilin yaşla bağlı istifadəsi birinci yanaşmaya, nəsillə bağlı istifadəsi isə ikinci yanaşmaya aiddir. P.Ekert hesab edir ki, bioloji yaşla sosial yaşı bir-birindən fərqləndirmək lazımdır. Bioloji yaş kimi insanın doğulduğu andan sonrakı bütün yaşı nəzərdə tutulur, sosial yaş anlayışı isə həyat hadisələri ilə, məsələn, ailə statusu və ya qanuni statuslar ilə bağlı olur [5]. N.Koupland sosial yaş anlayışı üçün "kontekstual yaş" terminindən istifadə edir [4].

Dilin yaşa görə fərqləndirilməsini ilk dəfə Ç.F.Hokett irəli sürsə də, onun bugünki mənada işlənməsi U.Labovun adı ilə bağlıdır. O, bunu cəmiyyətin stabilliyinin əksinə yönəlmiş fərdi linqvistik dəyişiklik kimi göstərir. Yaş dərəcələnməsi fərdin həyatının müxtəlif mərhələlərində baş verən dəyişikliklərlə məhdudlaşmır. Nitqdə yaş ilə bağlı fərqlərin təbiətini öyrənmək üçün bütün yaş kateqoriyalarından olan insanların nitqinin araşdırılması vacibdir.

Yaş kateqoriyası hazırda heç bir linqvistik dəyişikliyə məruz qalmayan sabit sosiolinqvistik fərqliliklərin və ya xüsusiyyətlərin istifadəsini nəzərdə tutur. Həmin xüsusiyyətlər şüurlu şəkildə idarə olunur. Bu səbəbdən yaşdan irəli gələn dəyişikliklər fonetik deyil, semantik dəyişikliklər olur və bütöv sözü əhatə edir. Belə dəyişikliklər bir nəslin müəyyən yaş dövründə müntəzəm şəkildə baş verən və baş verməsi / verəcəyi irəlicədən məlum olan dəyişikliklərdir. Yaş kateqoriyasındakı linqvistik dəyişikliklər fərdin inkişaf mərhələlərini göstərir.

Yaş kateqoriyasının ən prestijli olmayan dövrü yeniyetməlik dövrüdür. Bu dövrdə yeniyetmələr çox zaman cəmiyyətin normalarını qəbul etməkdən imtina edirlər [6]. 30–55 yaş insanların orta yaş dövrü və cəmiyyətin normalarına riayət etdiyi dövrdür. Bu dövrdə insanlar daha konservativ olur və daha çox mövcud normativ formalardan istifadə edirlər. Ahıllıq dövrü isə prestijli olmayan yaş dövrü hesab edilir. Bu dövrdə insanlar əsasən işləmir və buna görə də müəyyən mənada cəmiyyətin təzyiqindən uzaq olur.

Uşaqlar dil öyrənməyə başlayarkən onu öz valideynlərinin, həmçinin onların qayğısına qalan digər insanların öyrəndiyi yoldan istifadə edirlər. Yeni yaş dövrünə keçid zamanı onlar artıq fərqli normalarla üzləşir və öz həyatlarında həssas dönəmə başlayırlar. Yeniyetməliyə keçid və yeniyetməlik dönəmində dildə dəyişikliklərin baş verməsi labüddür. Yeniyetməlik yetkinliyə aparan keçid dövrüdür. Bu zaman yeniyetmələr özlərini fərdi şəkildə ifadə etməyə, yetkin insanlardan fərqlənmək üçün dil vasitələrindən fərqli şəkildə istifadə etməyə çalışırlar. Daha gənc yaş qruplarının da cəlb olunduğu tədqiqatlar [2] göstərir ki, dil dəyişiklikləri, 11–14 yaş və 20–23 yaşlardan daha çox 15–17 yaş arası insanlarda müşahidə olunur. Bu, yeniyetməliyin zirvəsi dövrüdür.

Yetkinlik dövründə insanlar daha konservativ dil faktlarından istifadə etməyə başlayırlar. Yeniyetməlik dövründə işlətdikləri slənglər və vulqar sözlər indi yetkin insanlar kimi onların nitqində istifadədən çıxmağa başlayır.

J.K.Çəmbers belə bir nümunə gətirir: ingilis əlifbasının sonuncu hərfi bütün ingilisdilli ölkələrdə *zed* kimi, ABŞ-də isə *zee* kimi tələffüz edilir. Cənubi Ontarioda (Kanada) uşaqlar bunu *vee* analogiyası ilə *zee* kimi öyrənirlər. Burada aparılan araşdırmalar göstərir ki, bu hərfi *zee* kimi tələffüz edən gənc insanların sayı yetkin insanlarla müqayisədə daha çoxdur. 1979-cu ildə Torontoda aparılmış araşdırmalara görə, 12 yaşlı uşaqların üçdə iki hissəsi əlifbadakı hərfləri sadalayarkən onu *zee* ilə bitirirlər, lakin yetkin insanların yalnız 8 faizi bele tələffüz edir. 1991-ci ildə aparılmış iki başqa araşdırmaya görə, 12 yaşlı uşaqların 25 faizi, 20–25 yaşlıların isə 39 faizi həmin hərfi *zee* kimi tələffüz edir. Sonrakı nəsillərdə də onun *zee* kimi tələffüzü azalmağa doğru gedir [8].

Müasir dövrdə ingilis dilində mesajlaşma zamanı yeniyetmələrin işlətdiyi *lol, haha* və *hehe* kimi sözlər müəyyən mənada onların yaşına işarə edir. Yeniyetməliyin ilk dövrlərində *lol* kəlməsi daha çox işlənsə də, yeniyetməliyin sonuna doğru *haha* kəlməsi ilə əvəz olunur. Daha yaşlı yeniyetmələr *lol* sözünü gənclərin işlətdiyini gördükdə onu öz nitqlərində azaltmağa çalışırlar.

Öz cəmiyyətimizdə də yaşından asılı olaraq insanların fərqli nitqini müşahidə edə bilərik. Məsələn, həmyaşıdlarımızla daha rahat danışdığımız və gündəlik məişət sözlərindən istifadə etdiyimiz halda, ailəmizin yaşlı üzvləri ilə ünsiyyətdə daha formal vasitələrdən istifadə edirik. Nitq aktında iştirak edən insan da yaşından asılı olaraq bizimlə ünsiyyətdə sözləri bizim yaşımıza uyğun olaraq seçir.

Yeniyetmələrin istifadə etdiyi slənglər və ya sözlərin məcazi mənada işlədilməsi onların nitqində normaya çevrilməyə başlayır. Onlar öz nitqlərində

istifadə etdikləri dil formalarının digər yaş dövrlərində olan insanların istifadə etdiyi formalardan fərqləndiyini bilirlər. Q.İves Qərbi Yorkşiredə yeniyetmələrin nitqini araşdıraraq onların nitqində müşahidə edilən səciyyəvi xüsusiyyətləri müəyyənləşdirmişdir. Onun 63 nəfər 17 yaşlı yeniyetmə ilə keçirdiyi sorğu nəticəsində müəyyənləşmişdir ki, yeniyetmələrin nitqində tez-tez slənglər, gündəlik məişət sözləri, tabu və dialekt sözlərdən istifadə olunur. Onun fikrincə belə sözlər yaşın daha az və daha çox olduğu dövrlər üçün ümumi deyildir. Yeniyetmələr dildən özlərinin sosial kimliyini yaratmaq və dəstəkləmək üçün istifadə edirlər. Bu səbəbdən onlar standart olmayan dil formalarından istifadə ilə özlərini daha sərbəst ifadə edə bilirlər.

Uşaqlar dili yeniyetmələrdən tam fərqli şəkildə öyrənir və ondan fərqli şəkildə istifadə edirlər. Məsələn, onlar öz sözlərini, hətta dostları arasında öz dillərini də yarada bilirlər. Uşaqların tələffüzü yaşca böyüklərin tələffüzü kimi aydın olmur. Lakin uşaq yaşlarında ikinci dil öyrənmək sonrakı yaş dövrlərinə nisbətən daha surətli və asan olur.

Uşaqlar, adətən, 9–18 ay arasında dil açmağa başlayırlar. İlk ümumi sözləri hansı dildə dil açmağa başlanmasından asılı olmayaraq, ana və ata ilə bağlı olur. 18 aylığa qədər onlar artıq 50–150 arası söz öyrənmiş olurlar. Bu yaş dövründən başlayaraq uşaqlar bir neçə sözdən ibarət cümlə qurmağa da başlayırlar. Məktəbəqədər yaş dövründə onlar dil qaydalarını artıq anlayır və istifadə edir, fikirlərini əlaqələndirə bilir.

Uşaqlar danışmağa onomatopeyalarla başlayır, bir səslidən iki səsli səs-sözlərə doğru inkişaf yolu keçirlər. Daha sonra isə onlar təkrar səslərlə ifadə olunan sözlərdən istifadə edirlər. Uşaqlar, adətən, /m/, /p/ və /b/ səslərini daha yaxşı tələffüz edə bilirlər. Bu onunla izah edilir ki, körpələr onlarla danışan böyüklərdə dodaqların hərəkətini aydın şəkildə görə bilir, çox şeyi təqlid edərək öyrənirlər. Başqa sözlə, uşqalar danışmağı təqlid yolu ilə öyrənirlər. 2 yaşında iki sözdən ibarət cümlə qurmağa başlayan uşaqlar 3–5 yaşlarında artıq kiçik cümlələr qururlar. Uşaq dilinin əsas xüsusiyyətlərindən biri odur ki, uşaqlar danışmağa başlayarkən istifadə etdikləri sözləri böyüklər kimi bütöv tələffüz etmirlər. Bu keyfiyyət bütün dillərin daşıyıcıları olan uşaqlarda müşahidə edilir.

İngilis dilində uşaqlıq dövründə hamının istifadə etdiyi sözlərə aşağıdakıları nümunə göstərmək olar: *mama, dada, ball* [ba] (onların tələffüzündə), *bye, uh-oh, hi, no, dog* [dah], *bottle* [bah] və ya *bah-bah, banana* [nana], *bubble* [buhbuh]. 3–4 yaşa qədər uşaqlar öyrənmiş olduqları sözləri cümlələrdə işlətməyə başlasalar da, qrammatik cəhətdən düzgün cümlə hələ qura bilmirlər. Uşaqlarda, əsasən də, zaman anlayışı hələ tam formalaşmadığından onlar keçmiş zaman formasından istifadə edə bilmirlər. İngilis dilində bu, özünü qaydalı və qaydasız keçmiş zaman fellərinin işlənməsində daha aydın göstərir. Məsələn, *swam* əvəzində *swimmed, went* əvəzində *goed* formalarının işlədilməsi uşaq dili üçün xarakterik haldır.

Basklarda uşaq dili modeli hətta qrammatikləşdirilir. Onlarda müntəzəm olaraq damaq apofoniyası müşahidə edilir [1. c.134]:

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 254-260*

| böyüklərin nitqində | uşaqların nitqində |
|---|---|
| *eder* 'gözəl' | *ejer* |
| *bero* 'isti' | *bello* |
| *zakur* 'it' | *ttattur* |
| *aita* 'ata' | *atta* |
| *onon* 'konfet' | *onon* |

Uşaq dilinə xas olan belə sözlərə Azərbaycan dilində də rast gəlmək olar: Müq.et: *çörək* - *əppək*

Yaş kateqoriyasını xarakerizə edən daha bir dövr yetkinlik dövrüdür. Uşaqlar və yeniyetmələrlə müqayisədə yetkinlərin nitqində xeyli fərqli xüsusiyyətlər müşahidə olunur. Yetkin insanlar daha çox həyat təcrübəsinə malik olduqlarından daha səlis danışırlar. Onlar dildən daha müstəqil və məqsədli şəkildə istifadə etmək bacarığına malik olurlar. Yetkinlik dövründə insanlar morfoloji strukturlardan daha geniş şəkildə istifadə edirlər. Lakin yetkinlikdən qocalığa doğru irəlilədikcə insanlar müəyyən sözləri unutmağa başladığından onların nitqində səlislik və aydınlıq azalmağa başlayır. Yaşlı insanların nitqində fasilələr getdikcə artır və onlar bu fasilələri doldurmaq üçün daha çox *hmm, aaa* kimi doldurucu sözlərdən istifadə edirlər.

Yetkin insanların dildən istifadəsinin öyrənilməsi göstərir ki, onların işlətdikləri sözlər ünsiyyətdə olduqları insanlardan çox asılıdır. Məsələn, nitq aktında ünsiyyət obyektinin kimliyindən asılı olaraq yetkin insanlar nadir sözlərdən, az işlənən sözlərdən və mürəkkəb qrammatik qaydalardan istifadə ilə fərqlənirlər. Böyüklər, uşaqlarla danışarkən, adətən, daha ümümi sözlərdən və sadə qrammatik strukturlardan istifadə edirlər. Bundan başqa, nitq aktı zamanı daha gənc lakin yetkin insanlar uşaqlar və tanımadıqları şəxslərlə danışarkən özlərindən böyüklərlə ünsiyyətdə istifadə etdikəri ilə müqayisədə daha çox, qeyri-adi sözlərdən və üslubi vasitələrdən istifadə edirlər. S.Gal 17–68 yaş arasında olan insanlar üzərində apardığı təcrübə əsasında belə nəticəyə gəlmişdir ki, ünsiyyət zamanı müsahib daha yaşlı insandırsa və kişidirsə, o halda, əsasən, az işlək olan sözlərdən istifadə edirlər. Araşdırmalar göstərir ki, yaşlılar və kişilər qadın və gənc insanlara nisbətən daha fərqli sözlərdən istifadə edirlər. Başqa sözlə, az işlək olan sözlərdən istifadə böyüklərin nitqini fərqləndirən əlamətlərdəndir. Daha yaşlı insanlar gənclərlə müqayisədə daha az işlək sözlərdən istifadə edirlər. Onların nitqinin daha bir xüsusiyyəti daha mürəkkəb qrammatik strukturlardan istifadə edilməsidir. Yaşlılar kişilərlə ünsiyyət zamanı daha çox mürəkkəb cümlələrdən istifadə edirlər.

Beləliklə, hansı dildə danışmasından asılı olmayaraq, ünsiyyət iştirakçılarının dil xüsusiyyətləri özünü hər yaş dövründə fərqli şəkildə göstərir. Başqa sözlə, hər yaş dövrünün dildən öz istifadə qaydaları mövcuddur. Bunu həm leksik vasitələrin, həm də qrammatik strukturların seçilməsinə aid etmək olar.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 254-260*

## Ədəbiyyat

1. Мельчук И.А. Курс общей лингвистики. Т.II. Морфологические значения. Москва –Вена. –1998.
2. Cedergren H.J. Interplay of social and Linguistic Factors. Ph.D. dissertation. Cornell University. –1973.
3. Cheshire Jenny. Age and Generation-specific use of language. Queen Mary, University of London. –2006
4. Coupland N. Language, ageing and ageism: a project for applied linguistics // International Journal of Applied Linguistics. –1997. –N.7 (1), P.26–48.
5. Eckert P. Age as a sociolinguistic variable. The Handbook of Sociolinguistics. Coulmas, Florian, ed., Oxford. –1997.
6. Holmes J. An Introduction to Sociolinguistics. London: Longman Group Ltd. –1992.
7. Labov W. Principles of Linguistic Change. Vol.1. Internal factors, Oxford. –1997.
8. https://en.wikipedia.org/wiki/Age-graded_variation
9. https://onlinelibrary.wiley.com/doi/abs/10.1111/1467-9481.00100

**Aysel Ağamalıyeva**

**Dildə yaş kateqoriyasının ifadəsi**

Xülasə

Dildə yaş kateqoriyasının öyrənilməsi insanların yaş xüsusiyyətlərinə uyğun olaraq istifadə etdikləri dil vasitələrinin dəyişməsi məsələlərini əhatə edir. Hansı dildə danışmasından asılı olmayaraq, insanın həyatının hər bir dövrü özünəməxsus xüsusiyyətlərə malik dil vasitələri ilə xarakterizə edilir. İnsanın uşaqlıq, yeniyetməlik və yetkinlik yaşlarında öz nitqində istifadə etdiyi dil vasitələri isə müəyyən dərəcədə fərqlənir. Bu fərqlər özünü həm leksik vasitələrin seçilməsində, həm də qrammatik strukturların istifadəsində göstərir. Yaş dövrləri üzrə nümunələrin analizi göstərir ki, uşaqların, yeniyetmələrin və böyüklərin dildən istifadəsi özünəməxsusdur. Bu xüsusiyyətlər yalnız bu və ya digər dilin ayrı-ayrı daşıyıcıları üçün deyil, həmin yaş dövründə olan bütün dil daşıyıcıları üçün xarakterik olur. Yaş xüsusiyyətləri ilə bağlı dil fərqlərinə əksər dillərdə rast gəlmək olar. Bu o deməkdir ki, danışmağa başlayan uşağın nitqində özünü göstərən xüsusiyyətlər başqa bir dildə dil açan uşağın nitqində də özünü göstərir.Başqa sözlə, bu xüsusiyyətlər universaldır. Ahıllıq dövründə olan dil daşıyıcıları da başqa yaş kateqoriyalarından olanlarla müqayisədə müəyyən dərəcədə fərqli leksik və qrammatik vasitələrdən istifadə edirlər. Beləliklə, insanların dil vasitələrindən istifadəsi onların həyatlarının hansı yaş dönəmində olmasından çox asılıdır.

**Aysel Aghamaliyeva**

**The expression of the category of age in a language**

**Summary**

The study of the age category in a language covers the issues of changing the linguistic means used by people according to their age characteristics. Regardless of the language a person speaks, each period of a person's life is characterized by language structures with unique characteristics. Linguistic means people use in their speech during various periods of their lives, such as in childhood, adolescence and adulthood differ to a certain extent. These differences manifest themselves both in selection of lexical means and in the use of grammatical structures. The analysis of samples by age periods shows that the language use of children, teenagers and adults is unique. These features are characteristic not only of individual speakers of this or that language, but of all speakers of that age. Language differences related to age characteristics can be found in most languages. This means that the characteristics that appear in the speech of a child who starts to speak are also manifested in the speech of a child who opens up in another language. In other words, these features are universal. Language speakers in the period of maturity also use different lexical and grammatical structures to some extent compared to those of other age categories. Thus, people's use of linguistic structures depends very much on the age period of their life.

**Айсел Агамалиева**

**Выражение категории возраста в языке**

Резюме

Изучение категории возраста в языке охватывает вопросы изменения языковых средств, которые применяются человеком в соответствии с особенностями возраста. Независмо от того, на каком языке говорит человек, каждый период его жизни характеризуются языковыми средствами, обладающими своеобразными особенностями. А языковые средства, используемые человеком в периоды детства, отрочества и зрелости, в определенной степени отличаются. Эти отличия проявляются как в выборе лексических средств, так и в использовании грамматических структур. Анализ примеров по возрастным периодам показывает, что использование языка детьми, подростками и людьми зрелого возраста своеобразно. Эти особенности характерны не только для отдельных носителей того или иного языка, но и для всех носителей данного возрастного периода. Языковые различия, связанные с возрастными особенностями, встречаются в большинстве языков. Это означает, что особенности, проявляющиеся в речи ребенка, начинающего говорить на одном языке, проявляются и в речи ребенка, начинающего говорить на другом языке. Другими словами, эти особенности универсальны. Носители языка в

зрелом возрасте тоже по сравнению с носителями того же языка других возрастных категорий используют в определенной степени отличные лексические и грамматические средства. Таким образом, использование людьми тех или иных языковых средств во многом зависит от их возрастного периода.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: filologiya elmləri doktoru, professor Həbib Zərbəliyev tərəfindən çapa tövsiyə olunmuşdur**